Yeni fərman ölkədə sahibkarlıq mühitinin daha da təkmilləşməsinə xidmət edir

İnzibati-amirlik və planlı iqtisadi sistem dağıldıqdan sonra yeni iqtisadi sistemin qurulması, onun bazar prinsiplərinə uyğunlaşdırılması vacib idi. Bunun üçün ilk növbədə iqtisadi və hüquqi islahatlar həyata keçirilməli idi. 1994-cü ilin sentyabrında Heydər Əliyevin təşəbbüsü ilə Bakıda "Sahibkarlıq strategiyası və iqtisadi yenidənqurma" mövzusunda beynəlxalq konfransın keçirilməsi də bu məqsədə xidmət edirdi. Tədbirdə Azərbaycanda sahibkarlığın inkişaf perspektivləri geniş müzakirə olundu. Bildirildi ki, bu sahədə Qərb dövlətlərinin zəngin təcrübəsindən istifadə edilməlidir.

Azərbaycanda 1993-1995 və 1997-2000-ci illəri əhatə edən sahibkarlığın inkişafı ilə bağlı iki dövlət proqramı icra olunmuşdur. Bu iki sənədin sahibkarlığın inkişafında xüsusi rolu danılmazdır. Belə ki, həmin proqramlarda sahibkarlığın inkişafının iqtisadi siyasətin prioritet sahələrindən biri olduğu bəyan edilmiş və bu istiqamətdə mühüm addımlar atılmışdır. Həmin sənədlərin əhəmiyyətli cəhətlərindən biri də ölkədə sahibkarlıq üzrə qanunvericilik bazasının yaradılması idi. Bundan əlavə, dövlət proqramlarının icrası çərçivəsində sahibkarlığın inkişafında mühüm əhəmiyyəti olan nəzarət sisteminin təkmilləşdirilməsinə start verilmiş və 1996-cı il iyunun 17-də "İstehsal, xidmət, maliyyə-kredit fəaliyyətinə dövlət nəzarətinin qaydaya salınması və əsassız yoxlamaların qadağan edilməsi barədə" fərman imzalanmışdır. Beləliklə, müxtəlif dövlət qurumlarının sahibkarların işinə yersiz müdaxilələrinə son qoyulmuşdur.

Məlumdur ki, kiçik və orta sahibkarlıq subyektlərinin inkişafı hər bir ölkənin dinamik inkişafında mühüm rol oynayan amillərdən biridir. Bu nəzərə alınaraq 1997-ci il iyunun 24-də "Azərbaycan Respublikasında kiçik və orta sahibkarlığa Dövlət Köməyi Proqramı (1997-2000-ci illər üçün)" qəbul edilmişdir. Qəbul edilən sənəd ölkədə kiçik və orta sahibkarlığın inkişafına mühüm töhfə verdi. Bundan sonra sahibkarlıq subyektlərinə vergi güzəştlərinin tətbiqi barədə "Əmək vergisi haqqında" (1995-ci il), "Müəssisələrin və təşkilatların mənfəət vergisi haqqında" (1996-cı il) qanunları qəbul olundu. Ardınca "Əlavə dəyər vergisi haqqında", "Fiziki şəxslərin gəlirlərindən vergi tutulması haqqında" qanunlar qüvvəyə mindi. Adıçəkilən qanunların qəbulu sahibkarlığın inkişafına sözün əsl mənasında böyük təkan verdi. Müəssisə və təşkilatların mənfəətindən vergi tutulmasının proqressiv sistemindən proporsional sistemə keçməsi və bu vergi növü üzrə vergi dərəcələrinin tədricən 35 faizdən 24 faizə endirilməsi, ƏDV-nin dərəcəsinin 28 faizdən 18 faizədək azaldılması, bir sıra vergilərin ləğv edilməsi, sosial sığorta ayırmalarının 40 faizdən 22 faizədək aşağı salınması, eləcə də vergilərin ümumi sayının 15-dən 19-dək azaldılması, kənd təsərrüfatı məhsullarının istehsalı ilə məşğul olan sahibkarların torpaq vergisi istisna olmaqla, digər vergilərdən azad edilməsi sahibkarlığın inkişafına geniş imkanlar yaratdı.

Prezident İlham Əliyevin rəhbərliyi altında 2003-cü ildən bəri sahibkarlığın fəaliyyətini tənzimləyən qanun və qərarlar daha da liberallaşdırıldı, sahibkarlığa dövlət maliyyə yardımı mexanizmi işə salındı, ixrac rüsumları ləğv edildi, idxal rüsumlarına 15 faizli maksimal hədd müəyyənləşdirildi. Bununla yanaşı, mənfəət vergisinin dərəcəsi 22 faizdən 20, fiziki şəxslərin gəlir vergisi 35 faizdən 20 faizə endirildi, sadələşdirilmiş verginin ildə bir dəfə ödənilməsi təmin edildi, elektron vergi hesab-fakturalarının tətbiqinə başlanıldı, kənd təsərrüfatı məhsullarının istehsalçıları üçün yanacaq, motor yağlarının və mineral gübrələrin dəyərinin 50 faizinin dövlət tərəfindən ödənilməsi mexanizmi həyata keçirildi. Eyni zamanda, aqrar sektorda çalışan sahibkarlara "Aqrolizinq" ASC tərəfindən ölkəyə gətirilən texnikaların və texnoloji avadanlıqların lizinqə verilməsi, satış zamanı dəyərin ödənilmə müddətinin 5 ildən 10 ilə artırılması, buğda istehsalçılarına səpilən hər hektar sahəyə görə əlavə 40 manat yardımın verilməsi, I və II reproduksiyalı toxumlara və tinglərə görə dövlət büdcəsindən təsərrüfatlara subsidiyaların ödənilməsi təmin edildi, bəzi fəaliyyət növləri üzrə xüsusi razılıq (lisenziya) alınmasına görə dövlət rüsumunun məbləği aşağı salındı.

Bu müddət ərzində sahibkarlığın inkişafına dövlət tərəfindən böyük maliyyə dəstəyi də verilib. Təkcə bu fakta nəzər salaq: son 10 il ərzində Sahibkarlığa Kömək Milli Fondunun vəsaitləri hesabına 19 mindən çox sahibkarın ümumi dəyəri 2 milyard manat olan layihələrinin maliyyələşdirilməsinə 45 faizi qaytarılmış vəsait olmaqla 1,2 milyard manat güzəştli kredit verilmiş və bu layihələr hesabına 110 minədək yeni iş yeri yaradılmışdır. Verilən kreditlərin 78 faizi, açılan iş yerlərinin isə 81 faizi regionların payına düşmüşdür.

Regionların sosial-iqtisadi inkişafı dövlət proqramlarının icrasına həsr olunmuş konfransda Prezident İlham Əliyev sahibkarlığın inkişafının zəruriliyindən söz açaraq demişdir: "Biz son 10 il ərzində eyni zamanda sahibkarlığın inkişafına çox böyük diqqət göstərmişik. Xüsusilə sahibkarların ölkə iqtisadiyyatına sərmayə qoyuluşunu təmin etmək üçün dövlət tərəfindən konkret proqramlar icra olunmuşdur, maliyyə resursları cəlb edilmişdir. Sahibkarlığa Kömək Milli Fondu hesabına 1 milyard 200 milyon manat investisiya qoyulmuşdur. Sahibkarlara güzəştli şərtlərlə kreditlər verilmişdir. Sahibkarlığın inkişafı üçün xüsusi tövsiyə planları da tərtib edilmişdir. Ölkə iqtisadiyyatında ən çox lazım olan sahələri inkişaf etdirmək üçün artıq Sahibkarlığa Kömək Milli Fondunun xətti ilə kreditlər ayrılır... Mən sahibkarlarla mütəmadi qaydada görüşürəm. Son 10 il ərzində bölgələrdə 1200-dən çox obyektin açılışında şəxsən iştirak etmişəm. Sahibkarlara öz dəstəyimi həmişə göstərmişəm, göstərəcəyəm. Bu dəstək həm siyasi, eyni zamanda maddi dəstəkdir. Yəni dövlət tərəfindən güzəştli şərtlərlə ayrılan kreditlər sahibkarlığın inkişafına böyük təkan vermişdir və verir".

Ölkə Prezidenti İlham Əliyev "Sahibkarlığın inkişafı ilə bağlı əlavə tədbirlər haqqında" yeni fərman imzalamışdır. Ölkədə sahibkarlıq fəaliyyətinin dövlət tənzimlənməsinin təkmilləşdirilməsi və əlverişli biznes mühitinin daha da yaxşılaşdırılması bu sənədin əsas istiqamətləridir. Fərmanda Nazirlər Kabinetinə aidiyyəti dövlət və hökumət qurumları ilə birlikdə hüquqi şəxslərin və hüquqi şəxs yaratmadan sahibkarlıq fəaliyyəti ilə məşğul olan fiziki şəxslərin (fərdi sahibkarların) "bir pəncərə" prinsipinə uyğun olaraq elektron qeydiyyatı zamanı prosedur müddətlərin azaldılması üçün qanunvericiliyə dəyişikliklər edilməsi barədə təkliflərini hazırlayaraq dövlət başçısına təqdim etmələri tapşırılıb. Bundan başqa, tikintiyə icazələrin verilməsi sahəsində mövcud prosedur və müddətlərin azaldılması üçün qanunvericiliyə dəyişikliklər edilməsi, eləcə də kreditlərin verilməsi prosesinə təsir edən təsisatların fəaliyyətinin təkmilləşdirilməsinə dair təkliflərin hazırlanması fərmanda öz əksini tapmışdır. Bir sözlə, fərmandakı 9 bəndin hər birində hökumət qarşısında qoyulan tələblər sahibkarlara fəaliyyət göstərmələrində daha əlverişli və münbit şəraitin yaradılmasına xidmət edir və bu sənəd, şübhəsiz, ölkədə sahibkarlığın gələcəkdə də dinamik inkişafının təmin olunmasında mühüm rol oynayacaq.

Rüstəm KAMAL,
"Azərbaycan"

Xəzər regionunun yeganə boruörtükləmə zavodu Bakıda yerləşir

Müəssisə yaxın vaxtlarda "Şahdəniz-2"nin sifarişlərini yerinə yetirməyə başlayacaq

"Caspian Pipe Coatings" (CPC) Xəzəryanı regionda fəaliyyət göstərən yeganə müasir boruörtükləmə zavodudur. O, "EUPEC Pipe Coatings Azerbaijan LTD" birgə müəssisəsinin hüquqi varisidir və Bakıda 2002-ci ildən etibarən fəaliyyət göstərir. Yarandığı dövrdən bu günə kimi CPC ümumi uzunluğu 2400 kilometrdən artıq müxtəlif diametrli boruların örtüklənməsini həyata keçirib.

CPC Azərbaycanda bir sıra mühüm neft-qaz və ixrac layihələrinə əməliyyatçılıq edən BP şirkətinin sifarişi ilə "Azəri-Çıraq-Günəşli", "Şahdəniz", Bakı-Tbilisi-Ceyhan, "Çıraq Neft Layihəsi", "Lay Suları" işlənmələri çərçivəsində çoxsaylı sifarişlər yerinə yetirib. Müəssisə eləcə də ARDNŞ-nin "Neft Daşları-Bahar", "Bahar-Hövsan", "Xarə-Zirə-NYM 1" və "Umid" üçün boruları örtükləyərək bu layihələrin icrasında yaxından iştirak edib.

CPC Bakının sənaye zonasında yerləşir. Şirkətin coğrafi mövqeyi boru izolyasiyası sahəsində quruda və dənizdə quraşdırılan kəmərlərə yüksək səviyyədə xidmət göstərməyə imkan yaradır.

Şirkətin qazandığı müvəffəqiyyətləri şərtləndirən amillər çoxdur. Bu, ilk növbədə onun peşəkar heyəti, müasir avadanlıqları, geniş ərazisidir. Müəssisənin öz ərazisində dəmir yolu kommunikasiyaları, gəmilərdən boruların və konteynerlərin yüklənib-boşaldılması əməliyyatların səmərəli keçirilməsinə imkan verən limanı, yükqaldırma və yükdaşıma üçün müasir texniki vasitələri var.

Müəssisənin müvəffəqiyyətlə başa çatdırdığı son işlərdən biri "Çıraq Neft Layihəsi"nin (ÇNL) borularının örtüklənməsidir. Belə ki, 2010-cu ildə BP şirkəti ÇNL çərçivəsində boruların korroziyaya qarşı örtüklənməsi və betonlanma işləri layihəsinin tender mərhələsində iştirak etmək üçün CPC-ə rəsmi dəvət göndərdi. Müəssisə həmin andan tender sənədlərinin hazırlamasını həyata keçirməyə başladı.

CPC müasir texnologiyalardan irəli gələn yüksək tələbləri yerinə yetirməyə qadir olan şirkətdir. O, istənilən layihənin icrası zamanı həyata keçiriləcək hər bir fəaliyyəti əhatə edir. ÇNL-də də bunlar özünü bariz şəkildə göstərdi.

ÇNL-nin borularının korroziyaya qarşı örtüklənməsi və betonlanma işlərinin görülməsi üçün müqavilə 2011-ci il yanvarın 18-də imzalandı. Bu CPC tərəfindən 2010-cu ildə tender sənədlərinin hazırlanması çərçivəsində həyata keçirilmiş işlərin məntiqi nəticəsi oldu və bu yerli müəssisə tarixində ilk dəfə olaraq beynəlxalq layihənin tamhüquqlu iştirakçısı kimi işlərin icrasına başladı.

Hələ tender sənədləri hazırlanarkən yüksək keyfiyyət amili önə çəkildi. Əməyin təhlükəsizliyi, insanların sağlamlığı və ətraf mühitin qorunması məsələləri də həmişə olduğu kimi diqqət mərkəzində saxlanıldı. Şirkətin daxili potensialının qiymətləndirilməsi, müəssisənin yerli mütəxəssislərin peşəkar inkişafına yönəldilmiş siyasəti, müəssisə daxilində yeni prosedurların yaradılması, İSO sertifikasiyasının həyata keçirilməsi, avadanlıqların və infrastrukturun "həmişə hazır" vəziyyətdə saxlanılması da qarşıya vacib şərtlər kimi qoyuldu. Bu və bir çox digər amillər nəticədə sözügedən layihədə CPC MMC-nin yerli müəssisə olaraq ilk dəfə tamhüquqlu tərəfdaş kimi iştirak etməsinə imkan yaratdı. Başqa sözlə, bütün bunlar CPC üçün gələcəkdə keçiriləcək layihənin ən əsas özəllikləri oldu.

Şirkət fəaliyyət göstərdiyi qısa zamanda bir çox nailiyyətlər əldə edib. İntertek Moody İnternational şirkətinin 2009-cu ildən bu günə qədər mütəmadi həyata keçirdiyi auditlərin nəticələrinə əsasən İSO 9001:2008 (keyfiyyətin idarə olunması), İSO 14001:2004 (ekoloji idarəetmə) və OHSAS 18001: 2007 (sağlamlıq və əməyin təhlükəsizliyinin idarə olunması) sistemlərinin tələblərinə cavab verdiyi üçün müvafiq sertifikatlarla təltif edilib.

Məlum həqiqətdir ki, hər bir müəssisənin uğurları onun işçilərinin peşəkarlığı ilə bilavasitə bağlıdır. Ona görə də CPC yerli mütəxəssislərin peşəkarlıq səviyyəsinin artırılmasına ardıcıl tədbirlər yönəldir. Bu da müsbət nəticəsini göstərir. Məsələn, əvvəlki illərdə uğurla həyata keçirilmiş və sifarişçilər tərəfindən yüksək qiymətləndirilmiş layihələrin hazırlıq və icra mərhələlərində CPC-lə yanaşı tərəfdaş şirkətlərin (EUPEC Fransa) mütəxəssisləri geniş iştirak edirdilər. Belə ki, mütəxəssislərin 40 faizi xaricilər olurdu. "Çıraq Neft Layihəsi"ndə isə boruların korroziyaya qarşı örtüklənməsi və betonlanma işlərinə yalnız icra mərhələsində 6 nəfər xarici mütəxəssis (EUPEC Fransa) dəvət edilmişdi. Beləliklə, ÇNL-nin borularının örtüklənməsində işçi heyətinin 97,5 faiz yerli və cəmi 2,5 faizi xarici mütəxəssislər olub.

Bütün işlər beynəlxalq layihənin tələblərinə cavab verən yüksək keyfiyyətlə və təhlükəsiz əmək şəraitində layiqincə başa çatdırıldı. Ümumi uzunluğu 20 kilometr olan 14, 16 və 30 düymlük borular betonla örtükləndi. 40 kilometr uzunluğunda 14, 16, 18 və 30 düymlük borular xüsusi üsulla korroziya əleyhinə örtükləndi və 40 kilometr uzunluğunda 14, 16, 18 düymlük boruların daxili səthi xüsusi üsulla təmizləndi.

Topladığı təcrübə və qazandığı nailiyyətlər CPC-ni inamla yeni layihələrə doğru aparır. Hazırda şirkət daha məsuliyyətli və genişmiqyaslı "Şahdəniz-2" layihəsi çərçivəsində korroziyaya qarşı örtükləyəcəyi və betonlanma işlərini yerinə yetirəcəyi boruların yolunu gözləyir.

Flora SADIQLI,
"Azərbaycan"

Sahibkarlığın inkişafına dövlətin növbəti dəstəyi

Sahibkarlığın inkişafına dövlətin gündəlik diqqət və qayğısı sayəsində ölkə üzrə özəl sektorda məhsul istehsalı ilbəil artır. Bu, xüsusən bölgələrdə sahibkarlara yaradılan münbit şəraitin nəticəsində mümkün olur. Konkret misal: son illər təkcə Şəmkir rayonu üzrə ümumi məhsul buraxılışı 2,3, kənd təsərrüfatı istehsalı 1,3 dəfə artıb. Sahibkarların sayı 4 dəfə çoxalıb. Onlara 15,2 milyon manat güzəştli kreditlər verilib. Belə faktları Azərbaycanın bütün rayon və şəhərlərində müşahidə etmək mümkündür.

Xəbər verildiyi kimi, Prezident İlham Əliyev cari il martın 3-də "Sahibkarlığın inkişafı ilə bağlı əlavə tədbirlər haqqında" fərman imzalamışdır. Fərmana əsasən, Nazirlər Kabineti qabaqcıl beynəlxalq təcrübəni nəzərə almaqla 2 ay müddətində Vergilər, İqtisadiyyat və Sənaye, Ədliyyə, Rabitə və Yüksək Texnologiyalar nazirlikləri və Prezidentin yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyi ilə birlikdə hüquqi şəxslərin və hüquqi şəxs yaratmadan sahibkarlıq fəaliyyəti ilə məşğul olan fiziki şəxslərin (fərdi sahibkarların) "bir pəncərə" prinsipinə uyğun olaraq elektron qeydiyyatı zamanı prosedur müddətlərin azaldılması üçün qanunvericiliyə dəyişikliklər edilməsi barədə təkliflərini hazırlayıb dövlət başçısına təqdim etməlidir.

Fərmanda digər əsas məsələ tikintilərə icazə verilməsi sahəsində mövcud prosedur və müddətlərin, eləcə də elektrik təchizatı şəbəkəsinə qoşulma sahəsində sənədlərin elektron qaydada qəbulunun təşkili, prosedur, müddət və xərclərin azaldılmasıdır. Bundan əlavə, sözügedən fərmanda aidiyyatı nazirlik, komitə, agentlik və səhmdar cəmiyyətlərə tapşırılmışdır ki, birlikdə elektrik təchizatı şəbəkəsinə qoşulma sahəsində sənədlərin elektron qaydada qəbulu, həmçinin daşınmaz əmlaka hüquqların dövlət qeydiyyatı sahələrində prosedur, müddət və xərclərin azaldılması üçün qanunvericiliyə dəyişikliklər edilməsi barədə, eləcə də kreditlərin verilməsi prosesinə təsir edən təsisatların fəaliyyətinin təkmilləşdirilməsi, kooperativ idarəetmənin təkmilləşdirilməsi və investorların maraqlarının qorunması ilə bağlı, habelə idxal-ixrac əməliyyatları zamanı tələb olunan sənədlərin, müddət və xərclərin azaldılması üçün qanunvericiliyə dəyişikliklər edilməsi və "Müflisləşmə və iflas haqqında" Azərbaycan Respublikası Qanununun təkmilləşdirilməsinə dair təkliflərini hazırlayıb Prezidentə təqdim etsinlər.

Göründüyü kimi, sahibkarlığın inkişafı daim dövlətin diqqət mərkəzindədir və Prezident İlham Əliyevin "Sahibkarlığın inkişafı ilə bağlı əlavə tədbirlər haqqında" fərmanı sözügedən sahədə bundan sonra da ciddi irəliləyişlərə səbəb olacaq. Ümumiyyətlə, dövlətin sahibkarlara olan qayğısı ilk növbədə sistemli tədbirlərin nəticəsidir. Bu sahədə həyata keçirilən islahatlar onu sübut edir ki, sahibkarlın zəmanətçisi elə dövlətin özüdür.

İqtisadçı mütəxəssislərin fikrincə, hər bir ölkənin yüksək inkişafında azad biznes və sahibkarlıq mühitinin vəziyyəti mühüm əhəmiyyət kəsb edir. Bazar iqtisadiyyatının əsas prinsiplərindən olan azad biznes və özəl sektora dövlət dəstəyi faktorları ümumi inkişafın əsas göstəricisidir. Dövlətin təmin etdiyi azad bazar institutu ölkədə sahibkarlığın inkişafını stimullaşdırır, ona geniş meydan verir. Eyni zamanda ölkədəki sərmayəçilərə yaradılan mühitin şəffaflıq dərəcəsi iqtisadiyyatın inkişafının əsas göstəricilərindən biri hesab olunur. Bu mənada bazar iqtisadiyyatını əsas meyar seçən Azərbaycan hökumətinin biznes mühiti ilə bağlı həyata keçirdiyi dəyərli tədbirlər mühüm əhəmiyyətə malikdir.

Ümumiyyətlə, sahibkarlığın dəstəklənməsi dövlətimizin sosial-iqtisadi inkişaf strategiyasının prioritet istiqamətlərindən biridir. Müasir dövrün tələblərinə uyğun aparılan islahatlar, müxtəlif sahələri əhatə edən dövlət proqramları və genişmiqyaslı infrastruktur layihələri, biznes və investisiya mühitinin davamlı olaraq yaxşılaşdırılması sahəsində görülən ardıcıl işlər və özəl sektorun inkişafına dövlət dəstəyi nəticəsində ölkəmizdə sahibkarların sayı ildən-ilə artır, onların iştirakı ilə ən müasir texnologiyalara əsaslanan rəqabətqabiliyyətli müəssisələr yaradılır, iqtisadiyyata investisiya qoyuluşu genişlənir. Azərbaycanın iş adamları dünyanın bir çox ölkələrində qarşılıqlı fayda əsasında işgüzar əlaqələr quraraq səmərəli fəaliyyət göstərirlər.

Təsadüfi deyil ki, dövlət başçısı sahibkarların qayğılarına diqqətlə yanaşır. Məhz bunun nəticəsidir ki, ölkəmizdə sahibkarlıq sektorunda davamlı islahatların həyata keçirilməsi, biznes mühitinin daha da yaxşılaşdırılması, qanunvericilik bazasının təkmilləşdirilməsi, eləcə də Azərbaycana yerli və xarici investisiyaların, müasir texnologiyaların cəlb edilməsi, bu yolla yüksək keyfiyyətli, rəqabətqabiliyyətli məhsulların istehsalı və digər sahələrlə bağlı tədbirlərin miqyası daha da genişlənir. Sahibkarlıq hüquqlarının müdafiəsi və sahibkarlığın inkişafına mane olan müdaxilələrin qarşısının alınması sahəsində də qətiyyətli addımlar atılır.

Aydındır ki, sahibkarlığın inkişafı orta təbəqənin, orta gəlirlərə malik cəmiyyətin güclənməsinə təkan verən amillərdən hesab olunur. Bu baxımdan son illər kiçik və orta sahibkarlığın inkişafı və dünya iqtisadiyyatına inteqrasiyasının sürətləndirilməsində, ixrac potensialının artırılmasında və cəmiyyətin sosial problemlərinin həllində iş adamlarının rolunun gücləndirilməsi orta təbəqə sektoruna böyük töhfə verir. Məhz bu səbəbdən sahibkarlığın inkişafının sürətləndirilməsi, biznes mühitinin daha da yaxşılaşdırılması və biznesə başlama prosedurlarının sadələşdirilmə\si üçün görülən zəruri tədbirlər son illər həyata keçirilən islahatların əsas istiqamətlərini təşkil edir.

Rəhman SALMANLI,
"Azərbaycan"